МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

НАУЧНО - ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИКИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА

*На правах рукописи*

**ЮСИФОВ ЭЛЬТУРАН ДЖАХАД оглы**

# ПОВЫШЕНИЕ ЭФФЕКТИВНОСТИ ИСПОЛЬЗОВАНИЯ ЗЕМЛИ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ И НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ЗЕМЕЛЬНЫХ ОТНОШЕНИЙ

**Специальность: 5312.01 – “отраслевая экономика”**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по экономике**

**БАКУ-2018**

AZƏRBAYCAN RESPUBLİKASI KƏND
TƏSƏRRÜFATI NAZİRLİYİ

KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI
ELMİ – TƏDQİQAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**YUSİFOV ELTURAN CAHAD oğlu**

# KƏND TƏSƏRRÜFATINDA TORPAQDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ VƏ TORPAQ MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5312.01 – “sahə iqtisadiyyatı”**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın**

**А В Т О Р Е Ф Е Р АТ Ы**

**BAKI – 2018**

Dissertasiya işi Kənd təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Məmmədov Füzuli Əziz oğlu**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, dosent
**Vəliyev Akif Həmzə oğlu**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Qədimli Nüşabə Astan qızı**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Aqrar Universitetinin "Aqrar siyasət və dünya iqtisadiyyatı" kafedrası

Müdafiə "______".____________2018-ci ildə saat ______-da Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Bakı şəhəri, N. Nərimanov rayonu, Az.29, 8-ci Köndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ________ 2018-ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru:** **V.R.Rzayev**

## İŞİN ÜMUMİ XARAKTERİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası ərazisi nisbətən kiçik olan ölkələr sırasına daxildir. Əhalinin sayının və tələbatlarının durmadan artması, torpaq sahələrindən fərdi məqsədlər üçün istifadə edilməsi, Xəzər dənizinin səviyyəsinin qalxması, meliorasiya, irriqasiya və eroziya ilə əlaqədar tədbirlərin tələb olunan səviyyədə aparılmaması, əkinçilik mədəniyyətinin yüksək səviyyədə olmaması, tikinti-abadlıq işlərinin, nəqliyyat yollarının bərpası və tikintisi, infrastrukturun genişləndirilməsi və s. ilə əlaqədar olaraq hər nəfərə düşən kənd təsərrüfatına yararlı torpaqlar, o cümlədən əkin sahələri getdikcə azalır. Statistik məlumatlara əsasən ölkə əhalisinin hər nəfərinə 1959-cu ildə 0,36 ha əkin sahəsi düşdüyü halda, bu rəqəm 1970-ci ildə 0,23 ha, 1980-ci ildə 0,21 ha, 2010-cu ildə 0,20 hektara bərabər olmuş, 2016-cı ildə təqribən 0,19 ha təşkil etmişdir. Eyni problemlər kənd təsərrüfatına yararlı, biçənək və otlaqlar, habelə suvarılan torpaqlar barəsində də mövcuddur.

Ölkə əhalisinin sayı 1959-cu ildə 3,7 mln, 1970-ci ildə 5,1 mln, 1979-cu ildə 6,0 mln, 1999-cu ildə 7,9 mln, 2009-cu ildə 8,9 mln nəfər olmuş, hazırda isə 9,8 mln nəfərə yaxındır. Hesablamalara görə XXI əsrin ortalarında Azərbaycan Respublikası əhalisinin sayının 12 milyon nəfərə çatacağı gözlənilir. Göründüyü kimi, nəzərdən keçirilən dövrdə ölkəmizin əhalisi 1959-cu ilə nisbətən 1970-ci ildə 37,8%, 1979-cu ildə 62,6%, 1999-cu ildə 2,2 dəfə, 2009-cu ildə 2,4 dəfə, 2017-ci ildə 2,6 dəfə artmış, əsrin ortalarında isə bu artımın 3,2 dəfə təşkil edəcəyi gözlənilir.

Respublikamızın əhalisinin sayının artacağını və ərazisinin sabit qalacağını nəzərə almaqla belə bir nəticə çıxarmaq olar ki, müasir dövrdə kənd təsərrüfatında demək olar ki, ekstensiv inkişaf amilləri tükənmiş və bu, elmi-texniki tərəqqinin nailiyyətlərindən maksimum istifadə olunmaqla iqtisadiyyatımızın bir çox mühüm sahəsində istehsalın təşkilinin tamamilə intensiv tipinə keçilməsini təkidlə tələb edir. İstehsalın intensivləşdirilməsi isə onun səmərəliliyinin yüksəldilməsi məsələlərinin araşdırılmasını, onların həll edilməsi üçün mütərəqqi üsullardan istifadə olunmasını ön plana çəkir. Bu üsullar bütün hallarda torpaq üzərində mülkiyyət, torpağın münbitliyi, suvarması, icarəyə və istifadəyə verilməsi şərtləri, vergi siyasəti, yeni torpaq sahələrinin, kənd təsərrüfatı dövriyyəsinə cəlb olunması və s. ilə əlaqədardır. Bu baxımdan, olduqca mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edən bu mürəkkəb işdə yeni təşkilati- iqtisadi,

texniki və hüquqi tədbirlərin bütöv bir kompleksinin həyata keçirilməsi üçün torpaq ehtiyatları, torpaqların münbitliyi, suvarma sistemləri və meliorasiya işlərinin xarakteri, demoqrafik vəziyyət, hər bir regionun fərqləndirici xüsusiyyətləri və sairədən asılı olaraq torpaqlardan səmərəli istifadə ilə əlaqədar rasional variantların işlənilməsi zəruridir. Dissertasiya işi üçün bu mövzunun seçilməsini şərtləndirən başlıca səbəblər bunlardır.

**Problemin öyrənilmə vəziyyəti.** Əlverişli təbii-iqlim şəraitində yerləşən ölkəmizin ümumi torpaq fondundan, o cümlədən onun ən mühüm tərkib hissəsi olan kənd təsərrüfatına yararlı torpaqlardan səmərəli və məqsədyönlü istifadə edilməsi Azərbaycanın aqrar iqtisadçı alimlərinin diqqət mərkəzində olmuş, bu sahədə bir sıra tədqiqatlar aparılmış, sanballı əsərlər yazılmış, təklif və tövsiyələr verilmişdir. Ölkəmizin tanınmış iqtisadçı alimləri Z. Ə. Səmədzadə, S. V. Salahov, H. A. Xəlilov, İ. V. Əhmədov, Ə. Ç. Verdiyev, İ. Ş. Qarayev, İ. H. İbrahimov, İ. H. Aliyev, B. X. Ataşov, R. Ə. Balayev, R. K. İsgəndərov, F. Ə. Məmmədov, R. M. Quliyev, A. H. Vəliyev, V. R. Rzayev, R. M. Cəbiyev, R. N. Hüseynəliyev, V. H. Abbasov, N. Ə. Cavadov, İ. A. Aslanzadə, A. Ə. Kərimov, S. Q. Cümşüdov, S. B. Əliyev, M. Ə. Məmmədova, E. Ə. Quliyev, E. İ. Qasımova, R. Z. Hüseyn, xarici ölkələrin iqtisadçı alimləri Y. Şumpeter, E. Xayek, F. Y. Qavrilyuk, V. Buqa, İ. N. Buzdalov, V. J. Korovin, A. Sergeyev, S. D. Çeryomuşkin, Q. Q. Kotov, V. V. Ovçinnikov, N. Y. Kovalenko, M. Maşenkov, V. Qkuşkova, S. Makar, A. Mints, D. Lvov, S. Qlazyev, N. Reymers, T. Şarden, T. Titenberq, A. Enders və başqalarının torpaqdan istifadə ilə əlaqədar apardıqları tədqiqatlar diqqəti daha çox cəlb edir. İqtisadçı-alimlərin apardıqları elmi araşdırmalarla daha yaxından tanışlıq göstərir ki, onların olduqca qiymətli tədqiqatlarında səmərəli təkliflər və tövsiyələr irəli sürülsə də, problem kompleks şəkildə öyrənilməmiş və onun mübahisə doğuran tərəfləri hələ qalmaqdadır. Dissertasiya işi üçün məhz bu mövzunun seçilməsini şərtləndirən səbəblərdən biri də budur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın başlıca məqsədi - müxtəlif iqtisadi göstəricilər vasitəsi ilə ölkəmizdə kənd təsərrüfatına yararlı torpaq sahələrindən istifadənin mövcud vəziyyətini təhlil etmək və qiymətləndirmək, iqtisadi rayonların məhsul istehsalı sahəsində ixtisaslaşması, torpaq bazarının formalaşması xüsusiyyətlərini nəzərə almaqla, torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək,



**Çapa imzalanıb 19. 01. 2018**
**Sayı 100. Formatı 60x84 1/16**

**KTİETİ-nun “Elmi əsərlərinin” buraxılışı bölməsində çap olunmuşdur**

**(012) 514-84-10**

**Yusifov Elturan Cahad**

## Directions for increasing efficiency of land use and improvement of land relations

### SUMMARY

The dissertation work consists of introduction, three chapters, eight sub-chapters, results and offerings, list of used literature and appendix.

The theoretical-methodological and conceptual foundations of this problem and key organizational and economic and legal issues of regulation of land relations are reviewed in the first chapter of dissertation by name "Scientific and theoretical and methodological foundations of regulation of land relations".

In the second chapter of dissertation by name "Assessment of the current status of land use in agriculture" the system of indicators describing land use for agriculture was defined and using most of them, indicators expressing land use in Azerbaijan agriculture, formation features and current status of the land market are analyzed and land use is valued from economic point of view on the basis of large actual statistics. In this chapter, special attention was paid to determination of the areas of specialization in production of country's economic regions.

In the third chapter of dissertation named by "Directions for improving the regulation of land relations", prospects of government regulations of land relations are reviewed, its regional characteristics and the need to use international experience accumulated in this field are justified.

At the end of dissertation, proposals and recommendations playing a positive role in solving the problem are given on the basis of generalizations of results of the research work.



bu sahədə təklif və tövsiyələr verməkdən ibarətdir.

**Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuş və yerinə yetirilmişdir:**

- kənd təsərrüfatında ümumi investisiya əmtəəsi (istehsal vasitəsi) olan torpaqdan istifadənin elmi-nəzəri və konseptual əsaslarını, təşkilati-iqtisadi və hüquqi məsələlərini araşdırmaq;
- kənd təsərrüfatında torpaqdan istifadənin səmərəliliyini səciyyələndirən göstəriciləri əsaslandırmaq;
- torpaq bazarının formalaşması xüsusiyyətlərini tədqiq etməklə torpaq münasibətlərinin formalaşmasında onun rolunu qiymətləndirmək;
- ölkədə regional xüsusiyyətləri nəzərə almaqla torpaq münasibətlərinin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini əsaslandırmaq;
- torpaq münasibətlərinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək;
- kənd təsərrüfatında istehsalın maddi-texniki təchizat, loqistika səviyyəsinin yüksəldilməsinin onun iqtisadi səmərəliliyinə təsirini əsaslandırmaq;
- torpaq münasibətlərinin tənzimlənməsində beynəlxalq təcrübədən istifadənin zəruriliyini əsaslandırmaq;
- ümumiləşdirmələr aparmaq, nəticə çıxarmaq, kənd təsərrüfatına yararlı torpaqlardan istifadə mexanizminin təkmilləşdirilməsi ilə əlaqədar təklif və tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Milli Məclisin qanunları və normativ-hüquqi sənədləri, Nazirlər Kabinetinin qərarları, elmi-tədqiqat institutlarının araşdırmaları, problemin öyrənilməsi ilə məşğul olan iqtisadçı-alimlərin tədqiqatları təşkil edir.

**Tədqiqatın obyektini** ölkəmizin kənd təsərrüfatına yararlı torpaq sahələri, **predmetini** isə torpaq sahələrindən istifadənin tənzimlənməsi mexanizminin təkimilləşdirilməsi məsələlərinin tədqiqi təşkil edir.

**Tədqiqatın gedişində müşahidə, iqtisadi-statistik təhlil, sistemli yanaşma,** müqayisə, dinamika sıraları, məntiqi ümumiləşdirmə, balans, proqram-məqsədli, normativ və başqa metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrləri, Azərbaycan Respublikası Kənd

Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər Nazirliklərinin, Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı ASC-nin, habelə internet şəbəkəsindən götürülmüş məlumatları təşkil edir.

**Tədqiqatın elmi yenilikləri aşağıdakılardan ibarətdir:**

- kənd təsərrüfatında torpaq münasibətlərinin elmi-nəzəri, təşkilati-iqtisadi və hüquqi məsələləri araşdırılmış, kənd təsərrüfatı təyinatlı torpaq sahələrindən məqsədyönlü istifadənin təkmilləşdirilməsi istiqamətləri göstərilmişdir;
- torpaqdan istifadəni səciyyələndirən göstəricilər sistemi müəyyən olunmuş, iqtisadi rayonlar üzrə kənd təsərrüfatı təyinatlı torpaq sahələrindən istifadənin mövcud vəziyyəti təhlil edilərək, iqtisadi cəhətdən qiymətləndirilmişdir;
- iqtisadi rayonlar üzrə torpaq sahələrinin əsas xüsusiyyətləri nəzərə alınmaqla, istehsalın ixtisaslaşmasını şərtləndirən amillər təhlil olunmuş, əsas prioritetlər və müxtəlif ixtisaslaşma variantları müəyyən edilmişdir;
- torpaq bazarının (torpaq dövriyyəsinin) formalaşdırılması xüsusiyyətləri araşdırılıb təhlil edilmiş və torpaq münasibətlərinin təkmilləşdirilməsində onun rolu qiymətləndirilmişdir;
- torpaq sahələrinin keyfiyyətcə və iqtisadi qiymətləndirilməsi metodikasının təkmilləşdirilməsi məqsədilə müvafiq yanaşma verilmişdir;
- torpaq sahələrinin faktiki məhsuldarlıq səviyyəsi ilə potensial məhsuldarlıq imkanları müqayisəli şəraitdə tədqiq olunmuş və bunlardan birincinin ikincidən olduqca aşağı olması və imkanlarından tam istifadə olunmadığı müəyyən edilmişdir;
- kənd təsərrüfatına yararlı torpaq sahələrindən istifadənin yaxşılaşdırılması və əmərəli istifadəsi üçün konkret təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti, onun əsas müddəalarından, irəli sürülən konkret təklif və tövsiyələrdən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının yerinə yetirilməsində, kənd təsərrüfatına yararlı torpaq sahələrindən istifadənin və torpaq münasibətlərinin tənzimlənməsində, bölgələrin təbii-iqlim şəraiti nəzərə alınmaqla istehsalın ixtisaslaşdırılması istiqamətlərinin müəyyən edilməsində, qanunvericilik bazasının təkmilləşdirilməsində, təsərrüfatların daxili imkanlarının reallaşdırılmasında, kənd təsərrüfatı məhsullarının qiymətləri ilə digər sahələrin məhsullarının qiymətləri arasında paritetin gözlənilməsində və s. vacib olan konkret tədbirlərin işlənib



**Юсифов Эльтуран Джахад оглы**

**Направления повышения эффективности использования земель и совершенствование земельных отношений в сельском хозяйстве**

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, восьми параграфов, выводов и предложений, списка использованной литературы.

Во введении обоснована актуальность избранной темы, определены цели и задачи, объект и предмет исследования, изложена научная новизна и практическое значение работы.

В первой главе – «Научно-теоретические и методологические основы регулирования земельных отношений» – рассматриваются те–оретико-методологические и концептуальные основы этой проблемы и основные юридические и организационно-экономические вопросы регулирования земельных отношений в сельском хозяйстве.

Во второй главе – «Оценка использования существующего сос–тояния земель в сельском хозяйстве» – с использованием комплек–сных экономикических показателей и на основе фактических статистических данных проанализировано существующее состояние использования земельных угодий в сельском хозяйстве Азербайджана, особенности формирования земельного рынка, его нынешнее состояние, а также проведена экономическая оценка земель.

В этой главе особое внимание уделяется определению направлений специализации производства по экономическим регнонам и административным районам страны.

В третьей главе диссертации – «Направления совершенствова–ния урегулирования земельных отношений» – рассматриваются перс–пективы государственного регулирования земельных отношений, обосновывается необходимость учета его региональных особенностей и использования международного опыта в этой сфере.

В заключении обобщены результаты исследования, сформиро–ваны основные выводы, предложены рекомендации по дальнейшему совершенствованию регулирования земельных отношений в сельском хозяйстве Азербайджанской Республики.

7. Torpaq münasibətlərinin təkmilləşdirilməsinin zəruriliyi və əsas istiqamətləri. Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri, Gəncə-2016, №1, səh.130-133;

8. Aqrar iqtisadiyyatın bazar mexanizmləri və onlardan istifadənin səmərəliliyi. Gəncə Dövlət Universitetində 17-18 oktyabr 2016-cı il tarixdə keçirilmiş "Gənc alimlərin I Beynəlxalq Elmi konfransı "nın materialları. Gəncə-2016-cı il I hissə, səh.108-111;

9. Основные принципы и региональные особенности регулирования земельных отношений**.** Журнал "Известия вузов Кыргызстана" №9, 2016 г;

10. Kənd təsərrüfatında torpaqdan istifadənin səmərəlilik göstəriciləri sistemi. Gəncə Dövlət Universitetində 17-18 oktyabr 2016-cı il tarixdə keçirilmiş "Gənc alimlərin I Beynəlxalq Elmi konfransı "nın materialları. Gəncə -2016-cı il, I hissə, səh. 200-202;

11. "Влияние управления качеством продукции на экономическое развитие АПК**"** III международной научно-практической конференции "Переработка и управление качеством сельскохозяственной продукции**"**, Минск, 23-24 марта 2017, ст 299-300.



hazırlanması, habelə ali və orta ixtisas təhsili müəssisələrində müvafiq fənlərin tədrisi prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və tətbiqi.** Dissertasiyanın əsas müddəaları, irəli sürülən təklif və tövsiyələr 2014-2016-cı illərdə keçmiş Azərbaycan Elmi-Tədqiqat İpəkçilik İnstitutunda keçirilmiş elmi-tədqiqat işlərinin yekun konfranslarında, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun Arıçılıq Mərkəzində keçirilən seminarlarda, 3-4 oktyabr 2016-cı il tarixdə Azərbaycan Dövlət Aqrar Universitetində və 17-18 sentyabr 2016-cı il tarixdə Gəncə Dövlət Universitetində keçirilən beynəlxalq konfranslarda məruzə edilmiş və bəyənilmişdir.

Dissertasiya mövzusu üzrə ümumi həcmi 4,5 çap vərəqi olan 12 elmi məqalə ( o cümlədən biri xaricdə olmaqla) çap etdirilmişdir.

Tədqiqat işinin nəticələri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin Gəncə Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi və Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun "Arıçılıq" Mərkəzi tərəfindən tətbiq edilir (12 dekabr 2016-cı il tarixli arayış).

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya işi giriş, üç fəsil, nəticədən, istifadə edilmiş 137 adda ədəbiyyat siyahısından ibarət olmaqla, 156 səhifə kompyuter yazısı həcmindədir. İşdə 14 cədvəl, 4 sxem verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, obyekti, predmeti, informasiya bazası, elmi yenilikləri, nəzəri və təcrübi əhəmiyyəti, nəticələrinin sınaqdan keçirilməsi və tətbiqi, quruluşu və həcmi şərh olunur.

**Dissertasiyanın "Torpaq münasibətlərinin tənzimlənməsinin elmi-nəzəri və metodoloji əsasları"** adlanan birinci fəslində torpaq münasibətlərinin tənzimlənməsinin elmi-nəzəri və konseptual əsasları, torpaq münasibətlərinin əsas təşkilati – iqtisadi və hüquqi məsələləri araşdırılmışdır.

Bu fəsildə iqtisadiyyatın digər sahələrindən fərqli olaraq kənd təsərrüfatında torpağın başlıca və ümumi investisiya əmtəəsi olması, onun fərqləndirici xüsusiyyətləri, kənd təsərrüfatına yararlı torpaq sahələrinin münbitlik kateqoriyalarının mahiyyəti aydınlaşdırılır.

Məlum olduğu kimi, torpaq istehsal prosesində sosial-iqtisadi əlaqələrin obyekti kimi mülkiyyət və təsərrüfatçılıq obyekti formasında özünü biruzə verir. Torpaq sahələrinin keyfiyyətində olan fərqlər, mülkiyyət və təsərrüfatçılıq formalarının müxtəlifliyi, torpağasahiblik və ondan istifadə torpaq münasibətlərinin tənzimlənməsini zəruri edir. Bununla əlaqədar olaraq torpaq münasibətlərinin başlıca elementləri-torpaq üzərində mülkiyyətin forma və növləri, torpaq resurslarının idarə edilməsi mexanizmi və tənzimlənməsi metodları nəzərdən keçirilir. Alınan nəticəyə görə torpağa sahibolma və ondan istifadənin dəyişməsinə aşağıdakı amillər təsir göstərir:

- torpağın dövriyyəsi ilə əlaqədar olaraq torpaq mülkiyyətçilərinin və ondan istifadə edənlərin iqtisadi mənafeləri;
- əlverişli şəraitdə yerləşən torpaq sahələrinin qiymətinin nisbətən baha olması;
- kənd təsərrüfatında məhsul istehsalçılarının ixtisaslaşmalarına təsir göstərən bazarın cari vəziyyəti, elmi-texniki tərəqqinin inkişaf səviyyəsi;
- istehsalın səmərəli təşkili üçün şəraitin yaxşılaşdırılması, müasir texnologiyalardan geniş istifadə edilməsi.

Torpaq münasibətləri dövlətin siyasi və sosial-iqtisadi siyasəti ilə əlaqədardır və formalaşma dövrü, mədəni, psixoloji şəraitdən asılıdır. Dissertasiyada torpaq resurslarının iqtisadi tənzimləyicilər sistemi: torpaq vergisi, icarə haqqı, torpağın bazar qiyməti və təminatlı qiyməti, torpaq sahəsi zəruri halda geri alınarkən və təyinatı dəyişdirilərkən kompensasiya ödənişləri, torpağın keyfiyyətinin yüksəldilməsinə görə ödənişlər, ətraf mühitə dəyən ziyana görə cərimələrin ödənilməsi və s. ətraflı nəzərdən keçirilir.

Eyni zamanda burada torpaq münasibətlərinin əsasını torpaq rentasının təşkil etdiyi əsaslandırılır və A.İ.Türqo, U.Petti, A.Smit, D.Rikardo, C.Anderson, K.Marks və digər tanınmış mütəfəkkirlərin renta münasibətlərinə yanaşmaları şərh olunur və onun əsas formalarının: diferensial, mütləq, ekoloji, inhisar və s. - xarakteristikası verilir.

Dissertasiyanın bu fəslində Azərbaycan iqtisadiyyatında aqrar münasibətlərin spesifik cəhətlərinə, torpaq ipotekasının mahiyyəti və onun həcminə təsir edən amillər – kreditlər üzrə faiz dərəcələri, qiymətlərin dinamikası, torpağı icarəyə verən müəssisənin mövcud vəziyyəti, ipotekaya verilən sahənin həcmi, ipotekanın həm müsbət, həm də mənfi cəhətləri, icarə münasibətlərinin aydınlaşdırılması, torpağın qiymətinin spesifik qanunauyğunluqları geniş formada araşdırılır.



Beləliklə, iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, torpaq münasibətlərinin tənzimlənməsində təşkiledicilik funksiyası həmişə dövlətə məxsus olmalı, bazar mexanizmləri isə müvafiq qanunvericilik çərçivəsində və vətəndaşların mənafelərinə uyğun surətdə həyata keçirilməli və tənzimlənməlidir.

Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində toplanmış beynəlxalq təcrübənin müsbət cəhətlərindən ölkəmizdə də istifadə edilməsi məqsədəuyğun olardı. Bu, ölkəmizdə torpaq münasibətlərinin təkmilləşdirilməsində müsbət rol oynayan nəticələrə, eləcə də torpaq sahələrinin özünün və münbitliyinin qorunub saxlanmasına töhfə verə bilər.

Dissertasiya işinin sonunda aparılan tədqiqatın nəticələri ümumiləşdirilmiş, müvafiq təklif və tövsiyələr verilmişdir.

**Dissertasiya işinin mövzusu üzrə müəllifin aşağıdakı məqalələri çap olunmuşdur:**

1. Torpaq münasibətərinin dövlət tənzimlənməsinin əsas prinsipləri və regional xüsusiyyətləri. Azərbaycan Aqrar Elmi jurnalı, Bakı-2015, № 1, səh. 131-135;

2. Aqrar iqtisadiyyatda struktur dəyişikliklərinin xüsusiyyətləri və onlara təsir edən amillər. Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri, Gəncə-2015, №1, səh.133-136;

3. Xarici ölkələrdə torpaq münasibətlərinin dövlət tənzimlənməsi təcrübəsi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri, Bakı-2015, № 2, səh, 84-91;

4. Torpaq resurslarının idarə olunmasının iqtisadi mexanizmində renta münasibətlərinin yeri. Azərbaycan Aqrar Elmi jurnalı, Bakı-2015, № 3, səh. 111-114;

5. Kənd təsərrüfatında torpaq bazarının formalaşmasının mövcud vəziyyəti. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri, Bakı-2015, № 4, səh, 52-58;

6. Torpağın icarəyə verilməsi və icarə haqqının formaları. Azərbaycan Dövlət Aqrar Universiteti, "Aqrar elmin inkişafı, ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq" mövzusunda 03-04 oktyabr 2016-cı il tarixdə keçirilmiş 8-ci beynəlxalq elmi-praktik konfransın materialları. Gəncə-2016-cı il, II cild, səh, 346-349;

dözməlidirlər; 4) İstehsalçılara texniki və iqtisadi maliyyə köməyi göstərmək üçün müəyyən hüquqlara malik subyektlər tərəfindən təşkil olunmuş kooperativin 20 il ərzində üzvi olmalıdırlar.

Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində Almaniyanın təcrübəsi də maraqlıdır. Burada qanunla aşağıdakılara yol verilmir:

- torpaq sahibi, o cümlədən onun varisi dəyişdiyi halda kəndli təsərrüfatlarının və onların torpaq sahələrinin parçalanmasına;

- kənd təsərrüfatına yararlı torpaq sahələrindən öz təyinatı üzrə, yaxud da məhsuldar istifadə olunmaması hallarına.

Bunlarla yanaşı, ölkədə aşağıdakılara xüsusi diqqət yetirilir: 1) Torpaq sahələrinin özgəninkiləşdirilməsi ilə əlaqədar aparılan əməliyyatlar üzərində dövlət nəzarətinin həyata keçirilməsi; 2) Torpaq sahələrinin keyfiyyətinin yaxşılaşdırılmasının stimullaşdırılması; 3) Torpağı icarəyə verənə nisbətən onu icarəyə götürənə üstünlük verilməsi.

Almaniyada demək olar ki, kənd təsərrüfatında istehsalla məşğul olmaq üçün torpaq sahələrinin əldə edilməsi üçün heç bir maneə yoxdur. Lakin burada müəyyən şərtə əməl olunmalıdır. Bu şərt ondan ibarətdir ki, kənd təsərrüfatı torpaqlarından qeyri-kənd təsərrüfatı məqsədləri üçün istifadə edilə bilməz.

Finlandiyanın kənd təsərrüfatının əsasını həcmi orta hesabla 12 hektara bərabər olan ailə təsərrüfatları təşkil edir. Bu ölkədə taxıl istehsalı digər ölkələrlə müqayisədə çox-çox baha başa gəldiyi halda, daxili tələbatın ödənilməsində yerli istehsala üstünlük verilir, çünki taxıl strateji məhsuldur.

Çində dövlətin şəxsində torpaq üzərində ümumxalq mülkiyyəti saxlanılır, torpaq yalnız icarəyə verilir. Çünki bu qayda iqtisadi quruluşun əsaslarını sarsıtmır, kəndin həyat tərzini dəyişdirmir, yalnız təkamül yolu ilə təsərrüfat subyektlərinin statusunun inkişafını təmin edir, bazar münasibətləri sahəsində müstəqil sahibkarları formalaşdırır, bütün məhsul istehsalçıları üçün bərabər iqtisadi şərait yaradır, rəqabəti formalaşdırmağa imkan verir, əməyi stimullaşdırır, sahibkarlıq fəaliyyətini aktivləşdirir və s.

Bunlarla yanaşı, dissertasiyada keçən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq Macarıstanda, Rumıniyada, Serbiyada, Xorvatiyada, Polşada, Slovakiyada, Sloveniyada, Çexiyada aqrar iqtisadiyyatda, habelə inkişaf etmiş ölkələr olan Böyük Britaniyada, İsveçrədə və digər ölkələrdə aparılan islahatlar nəticəsində toplanmış müsbət təcrübədən nümunələr gətirilir, ümumiləşdirilmiş nəticələr çıxarılır.



Həmçinin bu fəsildə torpaq münasibətlərinin əsas təşkilati-iqtisadi və hüquqi məsələləri nəzərdən keçirilir. Torpaq üzərində mülkiyyət hüququnun həlledici əhəmiyyətə malik olması, onun dövlət tərəfindən mühafizəsi, mülkiyyət növləri, torpağa sahiblik və istifadə, torpaq resurslarından təbii və iqtisadi istifadə mexanizmi, torpağın müxtəlif ictimai və siyasi əhəmiyyəti, torpaq münasibətlərinin obyektləri: təbii obyekt və təbii resurs olması, torpaq sahələrinin məhsuldarlıq potensialı və onun qiymətləndirilməsi, torpaqdan istifadə hüququnun məhdudlaşdırılma şərtləri, mülkiyyətin formaları (vətəndaşların fərdi, ümumi müştərək, hüquqi şəxslərin mülkiyyəti və s.) məsələlərinin araşdırılmasına xüsusi diqqət yetirilir.

Burada dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin vətəndaşların xüsusi mülkiyyətinə hansı məqsədlər üçün verilməsi, torpağın qiymətləndirilməsi, torpaq sahələrinin dövlət monitorinqi, torpağın normativ qiyməti, torpaq sahələrinin icarəsi, icarə haqqının ödənilmə qaydaları, torpaq dövriyyəsi hüququnun mahiyyəti, torpaqdan məqsədyönlü istifadənin təminatı ilə əlaqədar tədbirlər geniş araşdırılır. Daha sonra Azərbaycan Respublikasında torpaq münasibətlərini tənzimləyən qanunvericilik bazası və bu sahədə görülən işlər, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında torpaqdan istifadə ilə əlqədar məsələlər, torpaq bazarının formalaşma xüsusiyyətləri və bu sahəyə dövlət müdaxiləsini zəruri edən şərtlər, torpaq resurslarından istifadə ilə əlaqədar ekoloji problemlərə xüsusi diqqət yetirilməsi və onun mühafizəsinin zərurililiyi, bu məqsədlə konkret tədbirlərin görülməsi, iqtisadi-ekoloji proqramların işlənib hazırlanmasının vacibliyi nəzərdən keçirilir. Ölkədə kənd təsərrüfatının dayanıqlı inkişafın və ərzaq təhlükəsizliyinin təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalının və emalının genişləndirilməsi və s. üçün əlverişli mühitin yaradılmasını təmin etmək məqsədilə konkret hədəflər, o cümlədən “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi”ndə, “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulan hədəf və prioritet istiqamətlərinə əhəmiyyəti əsaslandırılır.

**Dissertasiyanın “Kənd təsərrüfatında torpaqdan istifadənin mövcud vəziyyətinin qiymətləndirilməsi”** adlanan ikinci fəslində kənd təsərrüfatında torpaqdan istifadəni səciyyələndirən göstəricilər sistemi əsaslandırılmış, kənd təsərrüfatında torpaq bazarının formalaşması xüsusiyyətləri və mövcud vəziyyəti təhlil edilmiş və

torpaqdan istifadənin iqtisadi qiymətləndirilməsinə dair əsas meyarlar şərh edilmişdir.

Burada 2000-2017-c- illərdə ölkəmizin aqrar iqtisadiyyatında baş verən müsbət dəyişikliklərin təhlili məqsədilə kompleks iqtisadi göstəricilər sistemi araşdırılmışdır. Bu göstəricilərə torpaq və əkin sahələrinin quruluşu, əkin sahəsinin hər hektarına verilən mineral və üzvi gübrələrin miqdarı, suvarılan sahələr, torpaq sahəsinin hər hektarına və istehsal xərclərinin hər manatı üçün əldə edilən ümumi məhsulun, ümumi və xalis gəlirin, mənfəətin məbləği, əmək məhsuldarlığı, fondtutumu, fondverimi, maya dəyəri, rentabellik, eyni zamanda əkin yerinin hər hektarından əldə edilən bitkiçiliyin ümumi məhsulu, bitkiçilik məhsullarından əldə edilən ümumi və xalis gəlir, bitkiçilik məhsullarının satışından daxil olan mənfəət, kənd təsərrüfatına yararlı torpaq sahəsinin hər 100 hektarından heyvandarlıq məhsulları istehsalı, dənli bitkilərin əkin sahəsinin hər 100 hektarına görə quşçuluq məhsulları istehsalı, kənd təsərrüfatı bitkiləri və mal-qaranın məhsuldarlığı və s. daxildir.

Bu fəslin ikinci bölməsində iqtisadi kateqoriya olan "daşınmaz əmlak" anlayışı ilə hüquqi kateqoriya olan "daşınmaz mülkiyyət" anlayışlarının xarakteristikası verilir, onlar fərqləndirilir, mahiyyətləri araşdırılır, daşınmaz əmlakın başlıca növlərindən biri kimi təbiətin məhsulu olan, lakin insan əməyinin məhsulu olmadığına görə dəyəri olmayan torpağın qiymətinin müəyyən edilməsi metodikası nəzərdən keçirilir. Bu zaman onun sabit kəmiyyət olmaması əsaslandırılır, başlıca səbəb kimi differensial rentanın kəmiyyətinin dəyişməsinin təsiri göstərilir. Burada, həmçinin torpaq resursları və daşınmaz əmlak bazarlarına təsir edən amillər: siyasi, elmi-texniki, iqtisadi, sosial-mədəni, demoqrafik, təbii-coğrafi, ekoloji  və s. nəzərdən keçirilir, tələb, təklif və qiymətin bu amillərdən asılılığı əsaslandırılır. Torpaqların banitirovkasının aparılması, torpağın iqtisadi qiymətləndirilməsi, kadastrın ümumi iqtisadi prinsipləri nəzərdən keçirilir. Bunlarla yanaşı, burada aqrar sahədə daşınmaz əmlak bazarının xüsusiyyətləri – müxtəlif parametrlər üzrə seqmentləşdirilməsi, növləri, alqı-satqı və icarə bazarı üzrə seqmentləşmənin mahiyyəti, bazarın vəzifələri – informasiya, vasitəçilik, qiymətəmələgəlmə, tənzimləmə, sağlamlaşdırma və stimullaşdırma – formalaşmaqda olan daşınmaz əmlak bazarının səciyyəvi cəhətləri təhlil olunur.

Dissertasiyanın bu fəslində eyni zamanda  ölkəmizin zəngin təbii sərvətlərə və təbii-ekoloji şəraitə malik olması, iqtisadi və inzibati rayonların təbii-iqtisadi imkanları, istehsalın  ixtisaslaşması  istiqamətləri,



və bu sahədə regionların xüsusiyyətləri, toplanmış təcrübənin vəziyyəti və s. ətraflı araşdırılır və belə bir məntiqi nəticəyə gəlinir ki, regionlarda bəzi hallarda torpaq sahələrindən səmərəli istifadə edilməsində qanunvericiliyin tələbləri tam yerinə yetirilmir. Bu baxımdan torpaq sahələrinin vergiyə cəlb edilməsinin təkmilləşdirilməsinə ehtiyac vardır. Çünki torpaq münasibətlərinin tənzimlənməsi mexanizmində əsas iqtisadi vasitə kimi icarə haqqı və torpağın qiyməti ilə yanaşı, torpaq vergisi də həlledici əhəmiyyət kəsb edir. Torpaqdan istifadə ilə əlaqədar sövdələşmələrdən daxil olan vəsaitdən torpaq sahələrinin məhsuldarlığının yüksəldilməsi, istehsal və qeyri-istehsal sahələri də daxil olmaqla, kənd yerlərinin inkişaf etdirilməsi üçün istifadə edilməsinin məqsədəuyğunluğu göstərilir.

İnkişaf etmiş ölkələrdə torpaqdan istifadənin səmərəliliyinin yüksəldilməsi və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində müsbət təcrübə toplanmışdır. Həmin təcrübə göstərir ki, Avropada və Şimali Amerikada torpaqdan istifadə sahəsində iqtisadi münasibətlərin dövlət tənzimlənməsinin işlək mexanizmləri hazırlanmışdır. ABŞ, Kanada və Qərbi Avropa ölkələrində dövlət və xüsusi mülkiyyətdə olan torpaqlardan səmərəli istifadə edilməsi sahəsində toplanan təcrübə daha diqqətəlayiqdir. Belə ki, ABŞ-da kənd təsərrüfatı təyinatlı torpaq sahələrindən istifadə olunmasına təsir edən 125 proqram fəaliyyət göstərir. Ölkədə kənd təsərrüfatına yararlı torpaq sahələrindən istifadənin tənzimlənməsinin ən səmərəli metodu həmin torpaqların müxtəlif zonalar üzrə bölünməsidir. Ölkədə kənd təsərrüfatı təyinatlı torpaqların qeyri-kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına "keçirilməsi"nə məhdudiyyətlər qoyulmuşdur.

Qərbi Avropa ölkələrində torpaqdan istifadənin tənzimlənməsi ABŞ-da olanlardan fərqlənir, fermer gəlirlərinin təmin olunmasının dəstəklənməsinə xüsusi diqqət yetirilir. Bu ölkələrdə iqtisadiyyatın yenidən qurulması aqrar bölmədə özünü aşağıdakı səbəblərə görə daha qabarıq şəkildə göstərir:

1) Torpaq üzərində xüsusi mülkiyyət münasibətləri nəticəsində fermer təsərrüfatları inkişaf etdirilir; 2) Mərkəzi və Şərqi Avropa ölkələrinin ümumavropa iqtisadi məkanına inteqrasiyasına doğru aparır.

İtaliyada torpaq fonduna malik şəxslər aşağıdakı şərtləri yerinə yetirməlidirlər:

1) onlar, bilavasitə istehsalçı olmalı, torpağı özünün şəxsi əməyi, yaxud da özünün ailə üzvlərinin əməyi ilə becərməlidirlər; 2) Səmərəli peşə vərdişlərinə sahib olmalıdırlar; 3) Üç il ərzində müqaviləyə xitam vermək hüququna malik olmaqla, müəyyən edilmiş sınaq müddətinə




**Sxem 1. İqtisadi metodlar əsasında torpaq münasibətlərinin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi modeli**



əhalinin adət-ənənələri və tarixən formalaşmış istehsal təcrübəsinə görə fərqləndiyi qeyd edilir. Təbii ehtiyatların, o cümlədən kənd təsərrüfatında istehsalın başlıca təbii-iqtisadi amili olan torpaq sahələrinin spesifik xüsusiyyətlərini nəzərə almaqla, onlardan səmərəli istifadənin zəruriliyi əsaslandırılır.

Ölkəmizin torpaq fondu məqsədli təyinatı və hüquqi rejiminə görə qanunvericiliyə əsasən müxtəlif kateqoriyalara bölünür, onların ümumi torpaq fondunda xüsusi çəkisi müəyyən edilir, 1970-2017-ci illərdə hər nəfərə düşən kənd təsərrüfatına yararlı, o cümlədən əkin yeri, biçənək və otlaqların, suvarılan torpaqların sahələri üzrə göstəriciləri əsaslandırılmış qaydada hesablanır və onların azaldığı bildirilir. Burada həmçinin əsas bitkiçilik məhsulları istehsalının dinamikası verilir, təhlil aparılan dövrdə illər üzrə natura ifadəsində bitkiçilik məhsulları istehsalının həcmində kəskin fərqlərin olmasının başlıca səbəbi kimi onların məhsuldarlığının aşağı olması göstərilir.

Qeyd olunur ki, kənd təsərrüfatı bitkiləri məhsuldarlığının aşağı olmasının başlıca səbəbi mineral və üzvi gübrələrdən istifadə edilərkən aqrotexniki normalara əməl olunmamasıdır. Statistik məlumatlara əsasən (1995, 1999, 2009, 2010, 2011, 2012, 2013 və 2016-cı illərdə) ərzində əkin yerinin hər hektarına verilən mineral gübrənin miqdarı 1985 və 1990-cı illərdə (iki il üzrə birlikdə) əkin yerinin hər hektarına verilmiş mineral gübrənin 42,7%-i, o cümlədən taxıl üzrə 46,9%-i, pambıq üzrə 51,0%-i, tütün üzrə 62,1%-i, kartof üzrə 32,1%-i, tərəvəz və bostan bitkiləri üzrə isə 24,7%-i qədərdir. Bu dövrdə gübrələnmiş sahənin əkin yerində xüsusi çəkisi 1985-ci ildəkinə nisbətən xeyli azalmışdır.

Əsas kənd təsərrüfatı bitkilərinin məhsuldarlığında mövcud olan fərqlər özünü iqtisadi rayonlar üzrə daha qabarıq şəkildə göstərir. (cədvəl 1)

**Cədvəl 1.**

**İqtisadi rayonların ərzaq təyinatlı əsas kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı üzrə qruplaşdırması**

| I qrup respublika üzrə orta məhsuldarlıqdan yüksək göstəricilərə nail olmuş iqtisadi rayonlar | | | | II qrup məhsuldarlıq göstəricilərinin respublika üzrə orta göstəricilərdən aşağı olan iqtisadi rayonlar | | | |
|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | Kartof | Tərəvəz bitkiləri | Bostan bitkiləri | Dənli bitkilər | Kartof | Tərəvəz bitkiləri | Bostan bitkiləri |
| Gəncə-Qazax, Aran, Yuxarı Qarabağ, Naxçıvan | Gəncə-Qazax, Lənkəran | Gəncə-Qazax, Lənkəran, Quba - Xaçmaz | Gəncə-Qazax, Aran, Naxçıvan | Abşeron, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Kəlbəcər-Laçın, Dağlıq Şirvan | Abşeron, Şəki-Zaqatala, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Dağlıq Şirvan, Naxçıvan | Abşeron, Şəki-Zaqatala, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Dağlıq Şirvan, Naxçıvan | Abşeron, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Dağlıq Şirvan, Naxçıvan |

Məlumatlara əsasən bu nəticəyə gəlmək olar ki, bitkilərin məhsuldarlığının respublika üzrə orta göstəricidən aşağı olan iqtisadi rayonlarda da, torpağın hər hektarından respublika səviyyəsində məhsul yığılmış olsa idi, ölkədə taxıl, kartof, tərəvəz və bostan məhsulları istehsalının və ixracının xeyli artması baş verərdi.

Araşdırmalara əsasən bildirilir ki, məhsuldarlığın yüksəldilməsi və bitkiçilik məhsulları istehsalının artırılmasında torpaq resurslarından səmərəli istifadə olunması, kənd təsərrüfatı bitkilərinin ölkənin iqtisadi və inzibati rayonları üzrə düzgün yerləşdirilməsi və ixtisaslaşdırılması da əhəmiyyətli rol oynayır.

Respublikamızın yerləşdiyi ərazinin torpaq-iqlim şəraiti demək olar ki, bütün kənd təsərrüfatı bitkilərinin, o cümlədən texniki bitkilərin, pambıq, tütün, şəkər çuğunduru, günəbaxanın və qiymətli yem bitkilərinin becərilməsi üçün olduqca əlverişlidir.

Texniki bitkilərin məhsulları yüngül və yeyinti sənayesi üçün çox qiymətli xammal hesab olunur və bu səbəbdən də ixrac məhsulları içərisində xüsusi yer tutur. Texniki bitkilərin məhsullarının emalı nəticəsində köməkçi məhsullar (tullantılar) alınır ki, bunlardan da heyvandarlıqda yem kimi və digər məhsulların hazırlanmasında istifadə edilir.

Burada həmçinin qeyd edilir ki, pambıq bitkisi Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ iqtisadi rayonlarında becərilir və mütəxəssislərin hesablamalarına görə ölkə üzrə onun orta məhsuldarlığının 35-40 sentnerə çatdırılması və digər bölgələrdə də yetişdirilməsi mümkündür. Şəkər çuğunduru və dən üçün günəbaxan istehsalı sahəsində Aran, Yuxarı Qarabağ, Naxçıvan və digər iqtisadi rayonlarda, tütün istehsalı üçün Şəki-Zaqatala və Gəncə-Qazax iqtisadi rayonlarında əlverişli şərait vardır.

Aparılan tədqiqatlara əsasən, bitkilərin məhsuldarlığının yüksəldilməsi və məhsul istehsalının artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur hesab edilmişdir:

- əsas kənd təsərrüfatı işlərinin optimal müddətlərdə yerinə yetirilməsi;
- aqrotexniki tədbirlərə ciddi əməl edilməklə əkin sahələrinə aqrotexniki normalara uyğun mineral və üzvi gübrələrin verilməsi;
- seleksiya və toxumçuluq işinin səmərəli təşkili əsasında toxum materiallarının keyfiyyətinin yüksəldilməsi və düzgün rayonlaşdırılması;
- əkinçilik sisteminin müasir tələblər səviyyəsində təşkili, əkin dövriyyəsinin düzgün seçimi, torpağın münbitliyinin artırılmasını



Ümumiyyətlə, kənd təsərrüfatında istehsalın səmərəli təşkili məqsədilə ayrılan torpaq sahələrindən istifadənin səmərəliliyinin yüksəldilməsi və torpaq münasibətlərinin təkmilləşdirilməsi ölkəmizdə gedən sosial-iqtisadi proseslərin tənzimlənməsində mühüm rol oynaya bilər. Bununla əlaqədar olaraq torpaq münasibətlərinin tənzimlənməsinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinə, tənzimlənmənin iqtisadi metodlarının, xüsusilə də torpaq sahələri və torpaqdan istifadə edənlərin iqtisadi maraqlarının təmin olunmasına imkan verən üsul və vasitələrin yaxşılaşdırılmasına ehtiyac vardır. Bu məqsədlə torpaq münasibətlərinin dövlət tərəfindən tənzimlənməsi üçün sxem 1-də verilmiş göstəricilərdən və vasitələrdən istifadə edilməsi məqsədəuyğundur.

Bunlarla yanaşı, bu fəsildə torpaqdan pullu istifadənin məqsədəuyğunluğu, torpaq münasibətlərinin dövlət tənzimlənməsinin metodiki əsasları nəzərdən keçirilir, iqtisadi metodlar əsasında torpaq münasibətlərinin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi modeli verilir. Eyni zamanda, ölkəmizdə yeni torpaq münasibətləri və onun dövlət tənzimlənməsi sisteminin formalaşdırılmasının nəzəri konsepsiyasının işlənib hazırlanmasının zəruriliyi əsaslandırılır. Bu məqsədlə təklif olunan mexanizm bir-biri ilə qarşılıqlı əlaqədə olan üç bölümə ayrılır, onun hər birində həyata keçirilməsi zəruri olan tədbirlər əks etdirilir, torpaq sahələrinin bal sistemi ilə iqtisadi qiymətləndirilməsi metodikası şərh olunur.

Torpaq münasibətləri müəyyən metodlardan, mexanizmlərdən, ona bilavasitə və dolayısı ilə təsir göstərən amillərin təsiri və bir sıra vasitələrdən istifadə olunmaqla tənzimlənir. Bununla əlaqədar olaraq bu fəslin ikinci bölməsində torpaq münasibətlərinin tənzimlənməsində istifadə olunan hüquqi, təşkilati-inzibati və iqtisadi metodlara, bazar tənzimləyicilərinə (tələb və təklif) ətraflı xarakteristika verilir, torpaq münasibətlərinin dövlət tənzimlənməsinin aparılmasının daha vacib istiqamətləri müəyyən edilir. Torpaq münasibətlərinin dövlət tənzimlənməsi mexanizminin strukturu, müxtəlif təsərrüfat formaları və onların hər birinin bərabərhüquqlu təsərrüfat subyektləri olmaları, qəbul etdikləri qərarların və həyata keçirdikləri işlərin sosial-iqtisadi və digər nəticələrinə görə məsuliyyətləri, torpaq resurslarının idarə olunduğu səviyyələr (ölkə və bələdiyyə səviyyəsində) və yollar göstərilir. Torpaq münasibətlərinin elmi cəhətdən təmin olunması və tənzimlənməsi mexanizmlərində dəyişikliklər edilərkən onun aparılması istiqamətləri, torpaq münasibətlərinin tənzimlənməsi sahəsində yaradılmış hüquqi baza

- torpağa sahiblik və ondan istifadə olunmasına hüquqi və iqtisadi təminat verilməsi;

- torpaq istifadəçilərinin edənin istehsalın nəticələrinə sərbəst surətdə sərəncamvermə hüququnun təmin olunması;

- torpaq münasibətlərinin bütün subyektlərində istehsal proseslərinin həyata keçirilməsi üçün bərabər şəraitin və imkanların yaradılması;

- torpaq üzərində mülkiyyət hüququnun həyata keçirilməsində əhalinin müxtəlif sosial qruplarının mənafelərinin nəzərə alınması və onların bərabərhüquqluğunun təmin edilməsi;

- kənd təsərrüfatında istehsalın səmərəli yerləşdirilməsi və ixtisaslaşdırılmasının stimullaşdırılması;

- iqtisadi tənzimləyicilər sisteminin və renta tənzimləyicilərinin digər iqtisadi alətlərlə (qiymət, borc faizi, torpağın qiyməti, vergilər və s.) qarşılıqlı fəaliyyətinin formalaşdırılması üçün torpaq rentasından istifadə edilməsi;

- torpaqdan istifadə, onun keyfiyyətinin qorunub saxlanması və yaxşılaşdırılması ilə əlaqədar stimullaşdırıcı tədbirlərin prioritetlərinin müəyyən edilməsi;

- torpaqdan istifadə ilə əlaqədar ödəniş sisteminin və icarə münasibətlərinin təkmilləşdirilməsi;

- dövlət və ictimai ehtiyaclar üçün torpaq sahələri geri alınarkən və onun təyinatı dəyişdirilərkən təkmil kompensasiya sisteminin işlənilməsi;

- kənd təsərrüfatı təyinatlı torpaqlardan imkan daxilində başqa məqsədlər üçün istifadə olunmaması, torpaq sahələrinin iqtisadi qiymətləndirilməsi və bunlara əsasən onun normativ (baza) həddinin müəyyən edilməsi məsələləri də daxil olmaqla, tənzimlənən torpaq bazarının formalaşdırılması;

- torpaq sahələrinin ekoloji mühafizəsinin gücləndirilməsi;

- torpağa mülkiyyət və torpağa sahibolma hüququnun qeydiyyatı sistemi də daxil olmaqla, müvafiq infrastruktur və informasiya təminatının yaradılması;

- torpaqdan istifadə sahəsində qanunvericiliyin tələblərini pozanlara qarşı iqtisadi, inzibati və hüquqi sanksiyaların tətbiq edilməsi qaydalarından istifadə olunması.

Qeyd olunan məsələlərin həyata keçirilməsi torpaq resurslarından perspektivdə səmərəli istifadə olunmasında mühüm rol oynaya bilər.



təmin edən mütərəqqi becərmə üsullarından istifadə; - torpaq-iqlim şəraitinin imkan verdiyi və iqtisadi cəhətdən sərfəli olduğu məhsulların istehsalı üzrə regionlarda ixtisaslaşdırılmış orta və iri təsərrüfatların geniş şəbəkəsinin yaradılması;

- dövlət tərəfindən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi.

Bu fəsildə həmçinin ölkədə heyvandarlığın inkişaf etdirilməsi və mal-qaranın baş sayının artırılması nəticədə natura ifadəsində heyvandarlıq məhsulları istehsalının artmı, bütün iqtisadi rayonlarda maldarlığın, qoyunçuluğun, quşçuluğun inkişaf etdirilməsi məsələlərinin təhlili verilmişdir.

Bunun əsasında müəyyən edilmişdir ki, ölkəmizdə mal-qaranın məhsuldarlıq səviyyəsi inkiaf etmiş ölkələr ilə müqayisədə aşağı səviyyədədir. Belə ki, respublikamızın təsərrüfatlarında hər inək və camışdan orta illik süd sağımı ABŞ, Fransa, Danimarka, Böyük Britaniya, Hollandiya, İsveç, Yaponiya, Rusiya Federasiyası, Baltikyanı ölkələr və İsrailin göstəricilərdən 5-7 dəfə aşağıdır. Yeni Zelandiya və Avstraliyada hər qoyundan ölkəmizdəkindən orta hesabla 2,0-2,5 dəfə çox yun qırxılır, bir sıra ölkələrdə isə hər yumurtlyan toyuqdan 1,5-2,0 dəfə çox yumurta alınır və s.

Ölkəmizdə də yüksək göstəricilərin əldə edilməsi üçün real imkanlar olduğu elmi cəhətdən konkret misalda əsaslandırılır. Məsələn, Salyan rayonunun "Hacı Camalxan" fərdi sahibkar təsərrüfatında mələz inəklərdən orta hesabla ildə 6000 kq-dan çox süd sağılmışdır.

Deməli, heyvanların cins tərkibinin yaxşılaşdırılması sahəsində stimullaşdırıcı tədbirlərin genişləndirilməsi və onların daha da təkmilləşdirilməsi yolu ilə tədricən qarşıya qoyulan məqsədlərə nail olmaq mümkündür.

Bu fəslin sonunda tədqiqata əsasən ölkənin və onun iqtisadi rayonlarında təsərrüfat subyektlərinin ümumi gəlirləri, kənd təsərrüfatına yararlı torpaq sahələrinin hər 100 hektarından ümumi məhsul istehsalın və ümumi gəlirin, dənli bitkilərin əkin sahəsinin hər 100 hektarına görə yumurta istehsalının dinamikası təhlil olunmuş və torpaqdan istifadənin səmərəliliyinə təsir edən tədbirlərin aşağıdakı istiqamətləri müəyyən edilmişdir:

- məhsul istehsalçılarının mülkiyyətində olan torpaq sahələrinin hər hektarından səmərəli istifadənin təmin olunması;

- torpaq sahələrinin iqtisadi münbitliyinin qorunması və yüksəldilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi;

- torpaq sahələrinin iqtisadi münbitliyindən istifadəyə təsir göstərən daha səmərəli və daha çox fayda verən bitki növlərinin becərilməsi;

- toxumçuluq və seleksiya işlərinin yaxşılaşdırılması, bitkilərin yerləşdirilməsi sxeminin təkmilləşdirilməsi;

- kənd təsərrüfatı işlərinin optimal müddətlərdə aparılmasının təmin edilməsi və onların yüksək keyfiyyətdə yerinə yetirilməsi;

- torpaq sahələrinin meliorasiyasının inkişaf etdirilməsinə və kimyalaşdırılmasına xüsusi diqqət yetirilməsi;

- təbii biçənəklərdən və otlaqlardan istifadənin yaxşılaşdırılması;

- heyvandarlıq məhsulları istehsalının artırılmasında mühüm rol oynayan yem bazasının möhkəmləndirilməsi.

Beləliklə, aparılmış təhlilin nəticələrini ümumiləşdirərək torpaqdan istifadənin səmərəliliyinin yüksəldilməsi üçün iqtisadi rayonlar üzrə istehsalın aşağıdakı kimi ixtisaslaşdırılması daha məqsədəuyğun hesab edilmişdir. (cədvəl 2)

**Cədvəl 2.**

**İqtisadi rayonları üzrə istehsalın ixtisaslaşdırılması istiqamətləri**

| İqtisadi rayonlar | Əsas sahələr | Əlavə və yardımçı sahələr |
|---|---|---|
| Abşeron | Südlük-ətlik və ətlik-südlük istiqamətli maldarlıq, ətlik-yumurtalıq istiqamətli quşçuluq, açıq torpaqlarda tərəvəzçilik, subtropik meyvəçilik, üzümçülük, zəfərançılıq, örtülü torpaqlarda tərəvəzçilik və gülçülük, yem bitkiləri | Taxılçılıq, kartofçuluq |
| Gəncə-Qazax | Taxılçılıq, kartofçuluq, üzümçülük, örtülü və açıq şəraitdə tərəvəzçilik, meyvəçilik, bostan bitkiləri, baramaçılıq, qoyunçuluq, ətlik-südlük, südlük-ətlik, ətlik və südlük istiqamətli maldarlıq, quşçuluq, yem bitkiləri | Pambıqçılıq, tütünçülük, çuğundurçuluq, atçılıq, arıçılıq |
| Şəki-Zaqatala | Meyvəçilik, taxılçılıq, tütünçülük, gülçülük, baramaçılıq, qoyunçuluq, südlük-ətlik, südlük istiqamətli maldarlıq, ətlik-yumurtalıq istiqamətli quşçuluq, yem bitkiləri | Tərəvəzçilik, bostançılıq, kartofçuluq, yaşıl çay yarpağı |



**Cədvəl 2-nin ardı**

| | | |
|---|---|---|
| Lənkəran | Yaşıl çay yarpağı, sitrus bitkiləri, tərəvəzçilik, üzümçülük, qoyunçuluq, südlük-ətlik, ətlik-südlük, ətlik, südlük istiqamətli maldarlıq, ətlik-yumurtalıq istiqamətli quşçuluq, arıçılıq, yem bitkiləri | Meyvəçilik, taxılçılıq, kartofçuluq, çuğundurçuluq |
| Quba-Xaçmaz | Meyvəçilik, tərəvəzçilik, qoyunçuluq, ətlik-südlük, südlük-ətlik, ətlik, südlük istiqamətli maldarlıq, ətlik-yumurtalıq istiqamətli quşçuluq, yem bitkiləri | Taxılçılıq, kartofçuluq, üzümçülük, arıçılıq, baramaçılıq |
| Aran | Pambıqçılıq, taxılçılıq, bostançılıq, üzümçülük, çuğundurçuluq, quru subtropik meyvəçilik, tərəvəzçilik, baramaçılıq, qoyunçuluq, quşçuluq, ətlik-südlük və südlük-ətlik istiqamətli maldarlıq, yem bitkiləri | Kartofçuluq |
| Yuxarı-Qarabağ | Taxılçılıq, pambıqçılıq, çuğundurçuluq, baramaçılıq, bostançılıq, üzümçülük, ətlik-südlük və südlük-ətlik istiqamətli maldarlıq, qoyunçuluq, quşçuluq | Tərəvəzçilik, kartofçuluq, meyvəçilik, arıçılıq |
| Kəlbəcər-Laçın | Qoyunçuluq, ətlik-südlük və südlük-ətlik istiqamətli maldarlıq, arıçılıq, yem bitkiləri | Meyvəçilik, quşçuluq, kartofçuluq |
| Dağlıq-Şirvan | Üzümçülük, taxılçılıq, tərəvəzçilik, ətlik-südlük, südlük-ətlik istiqamətli maldarlıq, qoyunçuluq, arıçılıq pambıqçılıq, yem bitkiləri | Quşçuluq, kartofçuluq, meyvəçilik |
| Naxçıvan | Taxılçılıq, meyvəçilik, üzümçülük, tərəvəzçilik, pambıqçılıq, çuğundurçuluq, baramaçılıq, qoyunçuluq, südlük-ətlik və ətlik-südlük istiqamətli maldarlıq, ətlik-yumurtalıq istiqamətli quşçuluq, yem bitkiləri | Kartofçuluq |

**Dissertasiyanın üçüncü fəsli "Torpaq münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri"** adlanır və aşağıdakı məsələləri əhatə edir: torpaq münasibətlərinin dövlət tərəfindən tənzimlənməsinin perspektivləri; torpaq münasibətlərinin tənzimlənməsində regional xüsusiyyətlərin nəzərə alınması; torpaq münasibətlərinin tənzimlənməsi sahəsində beynəlxalq təcrübə və ondan istifadə edilməsinin zəruriliyinin əsaslandırılması.

Bu fəsildə araşdırmalara əsaslanaraq torpaq münasibətlərinin tənzimlənməsində istifadə olunan iqtisadi mexanizmlərin aşağıdakı tələblərə cavab verməsi tövsiyə olunur: